# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 68** **Bakı şəhəri, 1 mart 2022-ci il**

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsilin İnkişafı Fondu" publik hüquqi şəxsin yaradılması haqqında***

"Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 1399 nömrəli Fərmanının 1-ci hissəsinin və 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsilin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılsın.

**2.** "Təhsilin İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra – Nazirlik):

3.1. iki ay müddətində:

3.1.1. tabeliyindəki "Təhsilin İnkişafı Fondu"nun (bundan sonra – Fond) fəaliyyətini təmin etmək məqsədilə sədr və onun müavini daxil olmaqla, Fondun İdarə Heyətinin üzvlərini təyin etsin;

3.1.2. Fondun strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və ştat cədvəlini, habelə işçilərin əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) təsdiq etsin;

3.2. Fondun dövlət qeydiyyatına alınması üçün bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respubli-kasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin və Fond dövlət qeydiyyatına alındığı gündən 1 (bir) gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**4.** Müəyyən edilsin ki:

4.1. Fondun Nizamnamə fondu 1 (bir) milyon manat təşkil edir və Nazirlik tərəfindən tabeliyindəki təhsil müəssisələrinin (peşə təhsili müəssisələri istisna olmaqla) büdcədənkənar vəsaitindən, habelə ödənişli təhsil xidmətləri göstərilməsindən əldə etdikləri gəlirlərdən ayırmalar hesabına təmin olunur.

4.2. Fondun saxlanması xərcləri və fəaliyyəti Nazirlik tərəfindən bu Qərarın 4.1-ci bəndində qeyd edillən vəsait, eləcə də Fondun fəaliyyətindən əldə edilmiş digər vəsait hesabına maliyyələşdirlir.

**5.** Bu Qərarla təsdiq edilmiş Nizamnamədə dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 4 mart.- S.6.